# “Euronews” telekanalı X Qəbələ Beynəlxalq Musiqi Festivalı haqqında süjet yayımlayıb

AZƏRTAC xəbər verir ki, süjetdə Azərbaycanda X Qəbələ Beynəlxalq Musiqi Festivalının başa çatdığı qeyd olunur. Bildirilir ki, bir həftədən artıq davam etmiş festival çərçivəsində yerli əhali və turistlər Qəbələdə rəngarəng musiqi nömrələrindən, o cümlədən salsa, flamenko caz və əlbəttə ki, klassik əsərlərdən zövq alıblar. Yeri gəlmişkən, on il əvvəl klassik repertuarla başlayan festivalın formatı zaman keçdikcə genişləndirilib.




Festivalın bədii rəhbərlərindən biri, tanınmış violonçel ifaçısı və dirijor Dmitri Yablonski telekanala müsahibəsində deyib: “On il əvvəl tamaşaçılar çox müxtəlif idi. Bəziləri Avropadan, o cümlədən Londondan gəlmişdilər. Onlar Kovent-Qardendəki tamaşaların və ya Berlin Filarmoniyasındakı çıxışların həvəskarları idilər. Bu insanlar tamamilə gözlənilmədən ömründə ilk dəfə klassik konsertə gələn, özü də uşaqları ilə gələn adamlarla eyni məkana düşdülər. Biz bir dəfə festival ərzində nə qədər tamaşaçı gəldiyini hesabladıq - bu, 25 min nəfər idi. Bu, çox böyük tamaşaçı auditoriyasıdır”.

“Tarda səslərin çox geniş palitrasını təqdim etmək mümkündür. Mənim üçün tar sehrli alətdir. Azərbaycan muğamı insanı sehrləyən, ecazkar musiqidir. Mən hətta bunu fəlsəfi adlandırardım”, - deyə festivalın iştirakçısı, “Muğam” instrumental ansamblının rəhbəri, Azərbaycanın Əməkdar artisti, tarzən Sahib Paşazadə deyib.

Süjetin müəllifi vurğulayır ki, ənənəvi muğam vokal və instrumental ifanın bir araya gəlməsidir. Bu janrda klassik poeziyaya istinadla tez-tez improvizələr etmək də mümkündür.

# Milli valyutamızın 26 yaşı var



15 avqust 1992-ci ildə Azərbaycanın milli pul vahidi manat dövriyyəyə buraxılıb. 1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat = 10 rubl nisbətində rublla paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə edilib. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb. 2006-cı il yanvarın 1-dən yeni manata keçidlə əlaqədar 1 yeni manat (AZN) 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN birgə 1 il ərzində dövriyyədə olub və yalnız 2007-ci il yanvarın 1-dən yeni manata tam keçid təmin edilib.

**Səhrab UMUYEV.**

# Udi gənclər Bilik Fondunun köməyi ilə dövlət dilimizi daha dərindən öyrənirlər

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu avqustun 19-da Qəbələ rayonunun Nic qəsəbəsindəki yeni açılan “Azərbaycan Udi Ocağı” mədəniyyət mərkəzində “Azərbaycan dünyada tolerantlığın məkanıdır” mövzusunda “dəyirmi masa” təşkil edib



Tədbirdə Bilik Fondunun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Nic qəsəbə icra nümayəndəsi İbrahim Məmmədov, “Cotari” alban kilsəsinin dini rəhbəri Rafiq Danakari və başqaları çıxış edərək Azərbaycan Prezidentinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində ölkəmizdə dünyada bənzəri olmayan sivil multikultural və tolerantlıq mühitinin yarandığını diqqətə çatdırıblar. Qeyd olunub ki, dövlətimizin başçısının dini icmaların fəaliyyəti üçün mütəmadi olaraq ayırdığı maliyyə yardımı ölkədəki multikultural dəyərlərin yüksək səviyyədə qorunmasının daha bir təzahürüdür. Bu diqqət və qayğı dini icmaların fəaliyyəti üçün geniş imkanlar açır. Digər dini icmalar kimi, Alban-Udi Xristian icması da bu qayğını daim hiss edir. Dövlətimizin başçısının bu qəsəbəyə səfərlər etməsi, qəsəbədəki Alban-udi kilsəsinin bərpası, “Azərbaycan Udi Ocağı” mədəniyyət mərkəzinin açılması bu qayğının bariz nümunəsidir.

Qeyd olunub ki, Bilik Fondu yarandığı ilk günlərdən başlayaraq Nic qəsəbəsində müxtəlif tədbirlər, layihələr həyata keçirir. Fondun qəsəbədəki orta məktəbdə rus dilində təhsil alan udi gənclər üçün açdığı “Azərbaycan dili” kurslarında gənclər dövlət dilimizi böyük həvəslə öyrənirlər. Ödənişsiz əsaslarla artıq üç ildir fəaliyyət göstərən bu kursların dinləyicilərinə təlim-dərs prosesindən əlavə, Azərbaycan dili və ədəbiyyatına dair kitablar da hədiyyə olunur, intellektual yarışlar, gəzintilər, ekskursiyalar təşkil edilir.

Tədbir çərçivəsində kursun builki 12 məzununa sertifikatlar da təqdim olunub. Kursu bitirənlər adından çıxış edən Artur Mancari, Karlen Atoqoy, Olen Qukasari Bilik Fondunun və Alban-Udi Xristian icmasının rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Sonda Bilik Fondu tərəfindən kursa iki yüz kitab hədiyyə olunub.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**

# Maarifləndirmə tədbiri

Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə



Vətəndaş Təşəbbüsləri Mərkəzi ictimai birliyi Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində «Turizm məmnunluğunun artırılması istiqamətində maarifləndirmə işlərinin təşkili» mövzusunda tədbir keçirmişdir.

Tədbiri giriş sözü ilə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov açmışdır.

Mərkəzin direktoru tədris ocağının fəaliyyətindən, xüsusilə burada turizm sahəsi üçün ixtisaslı kadr hazırlığı vəziyyətindən bəhs etmiş, məktəbdə yetişən kadrların təkcə rayondakı deyil, Bakı şəhərindəki, ölkənin digər bölgələrindəki, turist obyektlərində də uğurla çalışdıqlarını bildirmişdir. Eyvaz Kazımov qeyd etmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyev Qəbələni respublikada Bakı şəhərindən sonra ikinci turizm məkanı kimi qiymətləndirmişdir. Bu bizim üzərimizə çox böyük vəzifələr qoyur. Tədris ocağımız gündən-günə genişlənən turizmin tələblərinə uyğun kadrlar yetişdirilməsinə xüsusi diqqət yetirir.

Azərbaycan Turizm və Menecmet Universitetinin dosenti, turizm və qonaqpərvərlik fakültəsinin dekanı Bahadur Bilalov, Vətəndaş Təşəbbüsləri Mərkəzinin rəhbəri Çingiz Gülalıyev «Turist məmnunluğunun artırılması yolları» mövzusu ilə əlaqədar çıxış etmişlər. Natiqlər «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair «Strateji Yol Xəritəsi»ndə turist məmnunluğunun artırılması, ölkəyə, bölgələrə daha çox turistin cəlb edilməsi üçün nəzərdə tutulan və həyata keçirilən tədbirlər barədə iştirakçılara geniş məlumat vermişlər.

Tədbir maraqlı diskussiya, sual-cavab şəklində keçirilmişdir.

**Səfa ASLANOV,**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

# Fermerlər üçün seminar

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti yerlərdə «Kənd Təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi layihəsi» çərçivəsində məlumatlandırma və maarifləndirici tədbirlər keçirir. Layihənin xidmət təminatçısı olan «Gəncə Regional Məsləhət Mərkəzi» tərəfindən təşkil olunan növbəti tədbir rayonumuzda keçirilmişdir. Tədbirə kənd təsərrüfatı məhsulu istehsalçıları dəvət olunmuşdu.



Tədbirin keçirilməsində məqsəd rəqabətə davamlı məhsul istehsalı və tədarükü üçün Azərbaycana məxsus model yaratmaq və həmin modeli bütün ölkədə tətbiq etməkdir.

Layihənin rəhbəri Arif Cahangirov tədbiri açıq elan etmiş, kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi layihəsi, onu idarə və icra edən təşkilatlar haqqında məlumat vermişdir.

Dəyər zənciri üzrə mütəxəssis Küşvər Məmmədova «Dəyər zəncirinin inkişafına investisiya və məsləhət xidmətləri dəstəyi» mövzusunda çıxış etmişdir.

Tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılmış, təklif və rəyləri dinlənilmişdir.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**